# Ay "Qaragilə"...

***Ey – illərdi məchul və nakam bir "qızıl gül"ü əsim-əsim əsdirib, səbrimizi kəsim-kəsim kəsən Kəs!..***



Xudafərin körpüsü

***Ay öz bülbül rübabı ilə xəzan könülləri belə güllləndirən Rübabə xanım!***

***Ey – xatirələrdə hər dəm ozan, hərdən aləm-azan sədaları, gahi kəklik, gahi turac ədaları ilə qalmış başdan-başa tamaşa xatun!***

***Ay apaydın xalları ilə – dilini yalnız anası bilən lalları da dilləndirən şəkər ləhcəli!***

***Ey – dipdiri həvəs-nəfəsilə arənləri selləndirib, ərgənləri tülləndirən, segah-dügahi zəngulələrilə əhilləri belə xəyalləndırıb bir-birinə bir dönəm də mehrləşdirən canlı həyat Qəzəli!..***



...Hə, doğma yurd-yuva hicrindən yana, bu dünyada hər vüsala "heç" söyləmiş, Xan Arazı "qanlı" tutub, o dünyaya yana-yana köç eyləmiş cənnət Gözəli! Sən – xalqın "aydınlıq" adlandırdığı suyu qanlı tutmuşdun, mən isə bu "gəlimli-gedimli, son ucu ölümlü dünya"da qıp-qısa bir xalq mahnısı sürəsiycə yaşadığın ömürcüyün axır tarixçəsini: –

## 1933-1983!..

Bunlar Sənin gəlim-gedim illərindir, ay Qaragilə...

Mahnılarının birində dönə-dönə təkrarladığın "Səbrü-qərar, səbrü-qərar!" kimi nida-nəsihət hara, bu tələm-tələsik vida-vəsiyyət hara, vay Qaragilə?! Bu qədər sənət yatırı, səs-avaz qatarı müqabilində əllicə il nəmənəymiş, səni Tarı, ay saysız-hesabsız sevərlərinin qısqanılmaz Yarı?!.

Amma qoy hələ bu minor məsələ sonraya qalsın. İş – vaxtına çəkər ("söz – vaxtına çəkər" deyiminin "aranjiman"ı); yəni, Sən o vaxt o dünyaya nə qədər tələsmişdin, mən də bu barədə elə o qədər ləngimək qəsdindəyəm, Xanım, oy!..

Deməli, öncə Sənin bu dünyadakı toy-büsati izlərin, dəm-dəstgahi sənət həzzlərin barədə, canım, hey!..

Bunların isə sayı da çoxdur, sanbalı da. Məsələn?

– Nərmənazik könüllərə yönlədiyin: "Sənsiz ey şux, mənim xoş güzəranım yoxdur"...

– Qəlbi qəlblərdə muçur-muçur bitirdiyin: "Ağac o-lay-dım, yolda du-ray-dım, sən gələn yol-lara köl-gə sa-lay-dım"...

– "Ay su gələr arxa-nova, ay tökülər çarxa-nova"- deyə şəlaləlænib təsdiqlədiyin "Yar yardan ayrılsa da, ay məhəbbət ölüncə var"...

Daha nə, ay fundamental-ornamental muğam və xalq mahnıları Sarayımızın ustad Nəqqaşəsi, xanım XANəndəliyimizin -

## BƏNZƏRSİZ BƏNDƏSİ!..

...Kaş mən bu yazını yaz ağzı – Sənin bu dünyaya gəlimin ayında yazıb, murad-murazıma yetmiş olaydım, ay Muradova Rübabə! Ki, heç olmasa, ifalarındakı alov-atəşlərə, o tayımızda qalan ilk məhəbbətindən yana niskil siləli həyat dramına, bu dünyadan yarımca əsrlik bir ömürcüklə getməyinin ağrısına qüvvət verən bu qorabişirən istilər tilişkəsinəsə ilişməyəydim...

Sənə butaylı bizlərdən daha bir köynək (və bir göynək...) yaxın Şəhriyar Dədə demişkən, "bir biləydim", bu saat mənim bəzi sözləri yaza-yaza zümzümələdiyim də ruhuna əyanmı, ay bağrıparə Qaragilə?!.

## "SİL GÖZÜN YAŞIN"?..

Görəsən bilirdinmi ki, bunu kimə dediyini biz də bilirik?..

O vaxtlar Sən bu sözlərlə ayrıca-əlahiddəcə bir Yara, müqəyyəd Birinə xitab etdiyin halda, bundan hal əhlinin hamısı, "qəmu-aşiqlərin qamusu" özgə bir nəm çəkirdi, Qaragilə!



Könlümü mərmər Səsinə, sözümü şəkər ləhcənə qatım, Qaragilə, bileysən bunnari niyə deyəm? Sən - həlbət də bileysən! Vəli, mənüm söz-sovim, filməsəl, o vaxti şurəvinin fil qulağində yatırtdığı bir qisim-qövümədi, qıza!..

Belə ki, can Qaragilə, Sən bu ilahi nəğməni bu tayda - Bakıda oxuyub lentə aldırsan da, "Dərbənd aralı, könlüm yaralı, Bir yar sevmişəm, Qaragilə, - ellər maralı" bəyanını ürəyində məhz Təbrizdən car etmisən! Bu, Sənin qanovuz rəngli səsindəki Təbrizlöyün niskildən əlavə, milli nəfs-nəfəsindəki məsafə iraqlığından - mənbə-mənsəb uzaqlığından da hiss edilir; axı, bizim (!) sabiq "Dəmirqapı Dərbənd"imiz o tay paytaxtımızdan bu tay paytaxtımıza nisbətdə daha "aralı", ay ümumazərbaycan Maralı!..







Bu heynidə o zamanlarkı "zəmanəzüü"çülərə xitabən haşa bir haşiyə; heç bilirsiz o cür siyasi çağlarda o cür mətləbləri hiss edib, bu cür hislər keçirmək nə demək?!.

...Bir kərə Rübabə xanımı AzTV-nin dəhlizində yaman halda, lap elə oxuduğu təsniflərdən birinin bir misrası ("Ay bu yaman gündə...) günündə gördüm və dilimdən bir söz çıxdı: "çöldən cağbacağ, içdən çilik-çilik bir termos..." Yan-yörəmdəkilər bu "obraz"ıma təbəssümləndilər, mənsə öz-özümə fikirləşdim: "haçansa bu kumirim haqda yazası olsam, sətirlərimdən qan-qada yağacaq..."

Və bu saat, deyəsən, -

## ELƏ "O MƏSƏLƏ"...

Düz demirəmmi, ay təkrarsız messosoprana?!.

Düz deyirəm. Bununla belə, bilirəm ki, bir yazıda bu ton-baritonluqla ağılayıb-yuğlamaq olmaz. Nədən ki, "bilmədiyimiz" mətləblər də var. Məsələn, Sən öz can-cismində yaylayıb-qışlayan qəmu-həsrətlərini dinləyicilə o cür ahəngi-zəngulələr, o sayaq bərdaşi-güşələrlə paylaşırdın, həmi? Bəs bu saat Səni səssiz-səmirsiz bir "alət"lə - "bir abbasilik" qələmlə ifadə etməyə çalışan bu yazarkeşin neyləsin, canım? Bu vurğunkeşin öz "çarxa-nova"yatmaz duyğularını oxucularıyla necə bölüşsün, ay görkəm-gözəllikcə major, bəxt-talecə minor xanım?!.

Amma o bəxt, o tale - şair demiş, çox da sevinməsin, qoy. Axı Sən həm də 38 yaşında Xalq artisti olmusan! Özü də, çoxları kimi, – tək elə "Azərbaycan SSR" sayalı yox, həm də milli mayalı xalq artisti! Güneyimizin – ad-sanı Şah Xətai şöhrətli Ərdəbilində doğulmusan. Quzeyimizdə – ucqar bir rayon teatrında ikən öz dərd-ələminlə bahəm, xoş avaz, bənzərsiz əda və davranışınla böyük aktyorumuz Ələsgər Ələkbərovun gözünə necə aləm görünmüsənsə, dərhal Bakıya dəvət edilmisən. Əvvəl Filarmoniyanın, sonra Opera və Balet Teatrının solisti, Asəf Zeynallı məktəbinin də bəxtəvərlərindən olmusan; uğuruna "Seyid Şuşinski məktəbi" düşüb. Opera teatrında isə naxışın birə beş gətirib! "Sevimlimiz" çağırılmısan, adın dillərə "əsil Əsli", "təkrarsız Xanəndə qız" kimi düşüb, "Ərəbzəngi"nə, "Şahsənəm"inə, "Sənəm"inə bir baxanlar növbəti çıxışlarını səbirsizliklə gözləyiblər. Oxuduğun muğamlar, təsniflər, xalq və bəstəkar mahnıları nəinki statistik heyranların, hətta təbiətən rəqabət-qısqanclıq damarlı sənətdaşların tərəfindən də möhürbənd, "avtoqraf-avtoportret" timsalında qəbul edilib.

Və elə bu heynidə həmin qəbil həmkarlarınla bağlı - heç zaman yadımdan çıxmayası bir olay...

"Məşhur"i-məşum "20 Yanvar" qırğınının ilk ildönümündə "Qızıl gül əsdi..." adlı bir veriliş hazırlarkən gözəl müğənnimiz Flora xanımın ifasına da ehtiyac duydum. Mən onun oxuyacağı "Qaragilə" mahnısındakı poetik misralar üstə publisistik gəzişmələr edəcəkdim (məsələn, "Şəhərin küçələri dolanbadolan" əvəzinə, "Bakının küçələri qan-qadaya bulanbabulan"). Lakin üç-dörd kərə zəngləşməyimizə, evinə iki dəfə çəkiliş qrupu göndərməyimə baxmayaraq, Flora xanım "mən elə bir korifeyin mahnısını oxuya bilmərəm" deyib, studiyaya gəlmədi...

Belə... Hətta yoxluğunda da bu dərəcə hörmət-izzət! Daha nə xiffət, nə məlamət, nə İran-Turan, ərəb-acəm, nə ah-uf, ay Ruh?!.

"Yoxluğunda" dedim? "Ruh" deyə xitablandım? Sənin əbədiololuğunu bilə-bilə, bu qeyri-əqli nəqlilik nəymiş belə, ay Qaragilə?!.

Efirlərdə oxuyurdun: "Heydərbaba, günlərimiz kəc oldu, Ömür keçdi, gələmmədim, gec oldu..." Məclislərin birindəsə söyləmişdin: "Ay həzərat, bu sözlərin hər biri ürəyimi minbir kərə deşmələr!.."

Və nəhayət, Haqq dünyaya köçənə qədər yaşadığın qəzavü-qədərlərdən -

## SEÇMƏLƏR...

Bu barədə düşünüb-daşınırkən haqqında oxuduğum yazılardan birinin gözəl başlığı gəldi gözlərimin xəyalına: "Doldur piyaləmi Arazdan mənim..." Sonra Üzeyir bəyin "Arazbarı"sı səsləndi ruhumda. Bəxtiyar Vahabzadənin "Yarım bu tayda qaldı, Yarım o tayda qaldı, Toyum burda çalındı, - Yarım o tayda qaldı" düşdü yadıma. Gördüm, belə getsə, hələ də hicrançay kimi axan o Arazın söz-sov dalğaları mənim bu vüsal məcralı yazı-arxıma dov gələcək, keçdim oxuyub-eşitdyim xatirələrələrdən bəzi fraqmentlərə...

Həmin real və irreal mənbə-məlumatlara görə, Rübabə xanımı dinləyəndə adama elə gəlir ki, cinayət etməyə hazırlaşan kəs də bu ecazkar səsin cazibəsi ilə pis niyyətindən əl çəkər...

Onun haqqındakı xatirələrin birində Xan Arazın ləpələri hicran-hicran sədalanır. Digərində "Xarı-bülbül" ab-havası yaşanır. Belə-belə, beləcə-beləcə, – lar axırda belə məlum olur ki, özəl-qəzəl Səsli Rübabə xanımın qəlbi də gözəllər gözəli imiş. Çox mərd, ağayana hərəkətləri varmış. Adını unutduğum bir xanım deyirdi: "O, məni Ərdəbildə qalan Mehrac adlı rəfiqəsinə bənzədirdi. Gecəni gündüzə qatıb, Rübabə xanımçün ruhuna uyğun şeirlər, mahnı sözləri axtarıb tapırdım. Onun hal-əhvalının izharı olan sözlər, mətnlər..."

Kiçik bacısı Tahirə Muradova isə onu bu xalqın "Səs-səda bacılığı" kimi təsvir-təfsir edirdi: "Bacım özündən, bizdən çox bu xalqı, bu



milləti oxuyurdu. Son günlərini də mahnıyla yaşadı. Şəkər xəstəliyi sağlamlığını, görkəmini alsa da, sonacan səsinə dəyə bilmədi. Mənim bu işə məətəl qaldığımı görəndə, deyərdi, ay qız, atamız tez-tez demirdimi ki, "səs bizdə həm Allah vergisi, həm də ölüncədi?!."

Bu məqamda onun avazını da yada salmayaqmı: "Yar yardan ayrılsa da, ay məhəbbət ölüncə var"...

Haqq dünyaya köç məqamında bacısına "ayrıca bir vəsiyyət" edir: "O taya yol açılarsa, Ərdəbildən bir ovuc torpaq gətirib səpərsən qəbrim üstünə..."

Bir neçə ildən sonra Ərdəbilə gedən Tahirə xanım nakam bacısının verdiyi nişanələrlə ata-baba ocağını tapır. Şəhərdəki qohum-əqraba, dost-tanış sovet vaxtı köcüb Şimali Azərbaycana getmiş Mirzə Xəlil İşraqinin hələ adını eşitmədikləri (Mirzə Xəlil 1946-da Arazı keçdiyi zaman Rübabə, Firəngiz və Ənvər adlı üccə övladı varmış, axı...) bu "şuralı qızının" pişvazına çıxır.

O vaxtlar Mirzə Xəlil kişinin nələr saydığını söyləmək çətin, fələyin saydığından isə bir-iki "rəqəm":

...Hələ uşaqkən bu ailə gözəl Ərdəbil dağlarına istirahətə gedir. Yeddi-səkkiz yaşlı Rübabə dağın döşündə bitmiş çiçəklərdən dərdikcə-dərir və nənəsi onlardan birini görəndə içini çəkib, vaysınır: "– Ay bala, sən neyləmisən?! Bu "Gümüşxəncər" çiçəyi 20-25 ildən bir açır. Bunu dərən adamın əllərini üç ay sərasər yara basar, tale-qismətdən isə yarımaz..."

Belə, "Qaragilə"... ❖

Tahir Abbaslı